

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

1 may 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 16 (3728)

# İqtisadiyyatımız şaxələndirilir

**Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında bir sıra müəssisələrin açılışını edib, Qusar rayonunda isə bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olub.**

Sumqayıt Kimya Sənaye Parkında "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak edən dövlət başçısına məlumat verilib ki, hazırda Azərbaycanda 9 sənaye parkı və 4 sənaye məhəlləsi var. Sənaye zonaları üzrə indiyədək ümumi investisiya həcmi 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib.

> "Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır"



## Dövlət başçısı yeni müəssisələrin açılışını edib

Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb.

Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı Fərmanla yaradılan Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

İki yeni zavodun istifadəyə verilməsi ilə burada fəaliyyət göstərən müəssisələrin sayı 26-ya çatıb. Hazırda parkda 6 mindən çox insan daimi işlə təmin olunub. İstehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir.

Tikinti kimyəvilərinin istehsalı zavodu ilə bağlı bildirildi ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Təməli 2023-cü ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi üçün 2,5 hektar ərazi ayrılıb.

Türkiyənin qabaqcıl avadanlıqları ilə təchiz olunan müəssisədə məhsul çeşidləri üzrə 7 istehsal xətti qurulub. Zavodun ümumi illik istehsal həcmi 295 min ton təşkil edir. Zavodda hazırda 102 nəfər işlə təmin edilib. Növbəti mərhələdə isə işçilərin sayının 245 nəfərə çatdırılması nəzərdə tutulur.

Dövlət başçısı, həmçinin "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodunun açılışında iştirak edib. Müəssisə İtaliyanın "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobillərinin yığımını həyata keçirəcək. Yeni müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirəcək, məşğulluğun artırılmasına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev həmin gün Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə də tanış olub.

Kompleks 8 min 700 ton tutuma malik soyuducu meyvə anbarından, çeşidləmə və paketləmə sahəsindən, material anbarından, hazır məhsul və yükləmə hissələrindən ibarətdir. Soyuducu anbar hər biri 300 ton tutuma malik 29 soyutma kamerası ilə təchiz edilib.

Layihə dəyəri 18 milyon manat olan "İsmikhanlı" bağçılıq və soyuducu anbar kompleksində 270 nəfər daimi, 400 nəfər isə mövsümi işlə təmin olunub.

# Kollegiya iclası keçirilib

**Aprelin 25-də Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının qorunması, cinayət işlərinin istintaqı və təhqiqat zamanı qanunçuluğa riayət edilməsi, polis-media əlaqələrinin təşkili sahəsində görülən işlərin vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**



## İctimai asayişin və təhlükəsizliyin qorunmasında məqsədyönlü fəaliyyət davam etdirilib

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2025-ci ilin I rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

### Hüquqazidd əməllərin sayı azalıb

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 7.829 cinayətin 87 faizi açılıb. Cinayətlərin dinamikasında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 12,3 faiz və ya 1.101 fakt azalma qeydə alınıb.

Ağır və xüsusilə ağır cinayətlər, şəxsiyyət əleyhinə olanlar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, ictimai yerlərdə, qrup halında və ailə münaqişəsi zəminində baş verənlər, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən və odlu silahın tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, oğurluqların, dələduzluqların, soyğunçuluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton 662 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 333 kiloqram çox narkotik vasitə çıxarılıb. Əllərdə qanunsuz saxlanılan 2.309 odlu silah aşkarlanıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi, o cümlədən müraciətlərə baxılması üzrə fəaliyyətin nəticələrinin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş maddi ziyanın 96 faizinin istintaq prosesində ödənildiyini nəzərə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

*(ardı 2-ci səhifədə)*

## Prezidentlər məmnundur

### İqtisadi əməkdaşlıq səmərəlidir

Aprelin 26-da Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Dövlət başçıları dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin daha da möhkəmləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər. Həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıqdan danışıblar.

## Pekində müsahibə

### Önəmli mesajlar verildi

Hər il xaricə səyahət edən 150 milyon Çin vətəndaşının cəmi 1 faizi Azərbaycana gəlsə, bu, ölkəmiz üçün yetərli olacaq. Bunu Prezident İlham Əliyev Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bildirib. Qeyd edək ki, dövlətimizin başçısı həmin müsahibəsində Azərbaycan ilə Çin arasında hazırkı iqtisadi əlaqələr, birgə layihələr və digər önəmli məsələlərə toxunub.

## Etibarlı tərəfdaş

### Əsas enerji təchizatçılarındanıq

Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Bunu Prezident İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti K.Kallası qəbul edərkən deyib. Prezident Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu bildirib.

## Prezidentdən başsağlığı

### Matəm kitabına ürək sözlərini yazdılar

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 25-də Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər. Azərbaycan Prezidenti və birinci xanım matəm kitabına ürək sözlərini yazıblar. Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete dövlətimizin başçısına və birinci xanıma başsağlığına görə minnətdarlığını bildirib.

## Fərman və sərəncamlar

*Prezident İlham Əliyev aprelin 25-də "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 162-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Fərman imzalayıb.*

*Azərbaycan milli mətbuatının 150 illik yubileyi keçiriləcək. Bununla bağlı Prezident İlham Əliyev aprelin 25-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev aprelin 25-də Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyasının (WUF13) milli koordinatorunun təyin edilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev aprelin 25-də Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikasının səlahiyyətli qurumunun müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.*

Cinayətkarlıqla müasir mübarizə..........2
Nazir vətəndaşları qəbul edib...............3
Beynəlxalq konfrans keçirilib................3
Ölkə rekordunu təzələdi.......................4

# Respublika Xəbərləri

### Sağlam siyasi dialoq

Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, politoloq və siyasi şərhçilərin, internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının növbəti birgə səfəri Laçın şəhərinə təşkil olunub. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə siyasi münasibətlər müstəvisində təşviq olunan sağlam siyasi dialoq mühiti çərçivəsində belə birgə səfərlər daha əvvəl Ağdam, Şuşa, Zəngilan, Əsgəran, Xocalı və Xankəndiyə təşkil olunub.

### İqtisadi məsələlər müzakirə edilib

Azərbaycanla Pakistan arasında iqtisadi əməkdaşlıqla bağlı potensialın reallaşdırılması müzakirə edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, videokonfrans formatında keçirilmiş görüşdə ölkələrimizin uğurlu tərəfdaşlığı məmnunluqla vurğulanıb. Ticarət əlaqələrinin və qarşılıqlı sərmayələrin intensiv təşviqi istiqamətində müzakirələr aparılıb.

### Valyuta ehtiyatlarımız çoxalıb

Azərbaycanın strateji valyuta ehtiyatları 73 milyard ABŞ dollarını keçib. İqtisadiyyat nazirinin I müavini Elnur Əliyev Bakıda keçirilən konfransda bildirib ki, bu göstərici ölkənin iqtisadi sabitliyindən xəbər verir və həm yerli, həm də xarici investorlar üçün cəlbedici mühit yaradır.

### Sahibkarların sayı artıb

Bu il yanvarın 1-nə olan məlumata görə, Azərbaycanda 1,4 milyondan çox fərdi sahibkar qeydiyyata alınıb. Hazırda 212 mindən çox hüquqi şəxs statusuna malik sahibkarlıq subyekti fəaliyyət göstərir ki, bu da əvvəlki illə müqayisədə 7,1 faiz artım deməkdir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyəti sürətlə inkişaf edir.

### Xocalılar da qayıdır

Böyük Qayıdış prosesi planlı şəkildə davam etdirilir. Bu çərçivədə Ağdam rayonunun Sarıcalı və Xocalı rayonunun Ballıca kəndlərinə növbəti köç karvanları yola salınıb. Yenidən qurulan Sarıcalıya bu mərhələdə 39 ailə – 169 nəfər, Xocalı rayonunun Ballıca kəndinə isə 15 ailə – 68 nəfər köçürülüb.

### İqtisadi artım daha da yüksələcək

Azərbaycanın nominal ÜDM-i ilk dəfə 2030-cu ildə 100 milyard ABŞ dollarını ötəcək. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, həmin ilin sonuna ÜDM-in nominal həcmi 2,5 faiz real artımla 171,522 milyard manat təşkil edəcək.

### Laçından Bakıya...

Laçında tikiləcək yeni anbardan Bakıya da su ötürüləcək. Dövlət Su Agentliyindən bildirilib ki, dövlət başçısının tapşırığı ilə 91 milyon kubmetr su tutumu olacaq anbarın texniki-iqtisadi əsaslandırılması hazırlanır. Həmin anbar Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl və Ağdam üçün həm içməli, həm də suvarma su mənbəyi kimi nəzərdə tutulur.

### Qərbi azərbaycanlıların hüquqları pozulur

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik Qərbi Azərbaycan İcmasının rəhbərliyi ilə görüşüb. İcma nümayəndələri azərbaycanlıların indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qalması nəticəsində onların əsas hüquqlarının pozulması, oradakı Azərbaycan mədəni irsinin məhv edilməsi barədə ICESCO rəhbərliyini məlumatlandırıblar.

### Tranzit imkanlarımız artırılır

Azərbaycan Çindən 26 milyon dollar dəyərində lokomotiv və ehtiyat hissələri alır. Lokomotivlərin xüsusən "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi" üzrə, eləcə də digər istiqamətlərdə artan yükdaşımalara xidmət etmək məqsədilə istifadəsi nəzərdə tutulur.

### "Küləyə qalib gəl"

"Bakı Marafonu 2025"ə qeydiyyat başa çatıb. Mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək marafona 27 min iştirakçı qeydiyyatdan keçib. Bu, ötənilki marafonlarla müqayisədə ən yüksək iştirakçı sayıdır. Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanı olan marafonun marşrutu ümumilikdə 21 km məsafəni əhatə edəcək.

# Kollegiya iclası keçirilib

## İctimai asayişin və təhlükəsizliyin qorunmasında məqsədyönlü fəaliyyət davam etdirilir

*(əvvəli 1-ci səhifədə)*

### Hesabat dövründə vəzifələr layiqincə icra olunub

Kollegiya iclasına yekun vuran nazir qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu bildirib, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsini tələb edib.

Bütün ərazi polis orqanlarının rəislərindən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasının zəruriliyini və müvafiq sahədə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

### Əsas vəzifə vətəndaş məmnunluğunun təmin edilməsidir

Törədilmiş əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşmasında polis orqanlarının istintaq və təhqiqat qurumlarının mühüm rolunu, bu istiqamətdə işin düzgün təşkilinin cinayətlərin açılmasında və araşdırılmasında, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasında, vurulmuş maddi ziyanın ödətdirilməsində əhəmiyyətini də qeyd edib.

Hər bir müstəntiqin və təhqiqatçının əsas vəzifəsinin insan hüquq və azadlıqlarını etibarlı müdafiəsi və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu vurğulayıb və aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Ərizə və şikayətlərə baxılması, eləcə də qanunçuluğun qorunması vəzifələrinin icrası kimi vacib məsələlərə toxunaraq bu istiqamətlərdə görülən işlərin xüsusi nəzarətdə saxlanıldığını, müraciətlərin obyektiv və həssaslıqla araşdırıldığını, qaynar xətlərə daxil olmuş və sosial şəbəkələrdə yayımlanmış məlumatlara çevik reaksiya verildiyini, bütövlükdə əldə edilmiş nəticələrin müsbət olduğunu bildirib.





Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin, o cümlədən əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən daha 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını diqqətə çatdırıb.

### Elektron xidmətlər müasir tələblərə uyğunlaşdırılır

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

### Nəqliyyat sıxlığı aradan qaldırılır

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə mane olan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını, insanların həyat və sağlamlığının yol-nəqliyyat qəzalarından qorunması işinin effektivliyinin artırılmasını tələb edib, habelə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində qarşıda duran vəzifələri müəyyən edib.

### DİN mediaya ən açıq qurumlardandır

Yekunda polis-media əlaqələrinin vəziyyətinə toxunaraq Daxili İşlər Nazirliyinin mediaya ən açıq qurumlardan biri olduğunu qeyd edərək Mətbuat Xidmətinin fəaliyyətinin daha səmərəli təşkili, informasiya məkanında rolunun artırılması, görülən işlər və həyata keçirilən tədbirlər barədə məlumatların ictimaiyyətə operativ çatdırılması üçün tapşırıq və tövsiyələrini verib.

# Operativ müraciət imkanı yaradılıb

## Vətəndaşlar polis rəislərinə birbaşa müraciət edə biləcəklər

**Vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, polis-vətəndaş münasibətlərində qarşılıqlı etimadın, şəffaflığın və məmnunluğun təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən tədbirlər davam etdirilir.**

Vətəndaşlar onlayn şəkildə qəbula yazılaraq ərazi polis orqanlarının rəislərinə birbaşa müraciətlərini edə bilərlər.

Müraciətlərin operativ, obyektiv və həssaslıqla araşdırılması məqsədilə göstərilən bu elektron xidmətdən yararlanmaq üçün DİN-in rəsmi internet saytı və "e-polis" tətbiqində müvafiq bölmə yaradılıb.

Mobil tətbiqə daxil olaraq "Ana səhifə"dən "Qəbula yazıl" xidmətinə keçid edib, qarşıya çıxan müvafiq ardıcıllıqları yerinə yetirməklə müraciəti tamamlamaq lazımdır. Qəbula yazılan hər bir şəxsin müraciəti Daxili İşlər Nazirliyi tərəfindən nəzarətə götürülür və problemin ən qısa zamanda həlli üçün zəruri tapşırıqlar verilir.

# Cinayətkarlıqla müasir mübarizə

## Ekspert-kriminalistlər tərəfindən aktual məsələlər müzakirə olunub

Daxili İşlər Nazirliyi və MDB iştirakçıları olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun təşkilatçılığı ilə "MDB iştirakçıları olan dövlətlərin səlahiyyətli orqanlarının ekspert-kriminalistik fəaliyyətinin aktual məsələləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Tədbirdə MDB iştirakçıları olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro, Rusiya Federasiyası, Özbəkistan, Belarus, Qazaxıstan, Tacikistan, Qırğız Respublikalarının kriminalistik-ekspertiza sahəsində çalışan mütəxəssisləri, DİN-in Polis Akademiyası, Kriminalistik Tədqiqatlar İdarəsi, Baş Prokurorluq, Ədliyyə Nazirliyin və digər qurumların nümayəndələri iştirak ediblər.






Konfransda MDB-yə üzv dövlətlərin beynəlxalq cinayətkarlıqla və cinayətkarların axtarışı ilə mübarizədə effektivliyi, informasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərin istintaqında ekspert-kriminalistik fəaliyyət, məhkəmə ekspertizasının istiqamətləri üzrə məruzələr dinlənilib.

Yekunda mövzular ətrafında müzakirələr aparılıb.

# Nazir vətəndaşları qəbul edib

## Seçim turunda iştirak edənlərdən 36 nəfəri Vətən müharibəsi iştirakçısıdır

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 27-də və 28-də Tovuz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**









Nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin Tovuz şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Tovuz Rayon Polis Şöbəsində Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Qazax, Ağstafa rayonlarından və digər bölgələrdən qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarına xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 36 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 191 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Polis xəbərdarlıq edir

## Avtobus zolağına daxil olan sürücülər maarifləndirilir



Paytaxt ərazisində yerləşən avtobus zolaqlarında ümumi istifadədə olan nəqliyyat vasitələrinin - avtobusların fasiləsiz, intensiv və təhlükəsiz hərəkətinin təşkili məqsədilə polis əməkdaşları tərəfindən nəzarət-profilaktik işlər davam etdirilir.

Sərnişinlərin marşrutlar üzrə hərəkətinə manеə yaradan avtomobillər müəyyən olunaraq barələrində inzibati tədbirlər görülür. Zolaqlar üzrə hərəkət üstünlüyünə malik avtobuslarda olan vətəndaşları gecikdirən halların aradan qaldırılması üzrə inzibati tənbeh tədbirləri ilə yanaşı, təbliğat-maarifləndirmə işi təşkil olunub.

Tədbirlərdə avtobus zolağına daxil olaraq ictimai nəqliyyatın hərəkətinə manеə yaradan sürücülər saxlanılır, onlarla profilaktik söhbətlər aparılır və mövcud qanunvericiliyin tələbləri barədə məlumatlar verilir. Törətdikləri qanun pozuntusunun digər vətəndaşlarımıza yaratdığı çətinliklər izah olunmaqla bu halın yüzlərlə vətəndaşın gecikməsinə və hərəkət intensivliyinə təsir etdiyi onların diqqətinə çatdırılır.

# Beynəlxalq konfrans keçirilib

## Polis Akademiyası təmsil olunub

Rusiya DİN-in Volqoqrad Akademiyasında "Hüquq və hüququn tətbiqi problemlərinin realizə edilməsində cinayət məsuliyyəti və onların elmi nəşrlərdə işıqlandırılması" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Konfransda DİN-in Polis Akademiyasını Cinayət prosesi kafedrasının rəisi polis polkovniki Səyyad Ağayev təmsil edib.



Konfransın gündəliyinə müasir şəraitdə cinayət-prosessual fəaliyyətin inkişaf strategiyası, cinayət prosesinin rəqəmsallaşdırılması, müasir kompüterləşdirmə şəraitində cinayət qanunvericiliyin norma və institutlarının inkişafı, cinayətlərin açılması və istintaqın texniki-kriminalistik təminatı, eləcə də digər məsələlər daxil edilib. Beynəlxalq elmi-praktiki konfrans iştirakçı dövlətlərin giriş xarakterli təbrik məruzələri ilə başlayıb və Volqoqrad Akademiyasının professor-müəllim heyətinin çıxışları ilə davam etdirilib.

Tədbirdə problemli hüquqi məsələlər araşdırılıb, müxtəlif fikir və təkliflər, mülahizələr irəli sürülüb, onların həlli yollarından danışılıb.

Ümumilikdə beynəlxalq elmi-praktiki konfrans səmərəli elmi mühitdə yekunlaşıb.

# Bilik yarışı keçirilib

## Polisin komandası birinci olub



Bu günlərdə Neftçala Olimpiya İdman Kompleksində "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual bilik yarışı keçirilib.

Bilik yarışında ümumilikdə 27 komanda mübarizə aparıb. Yarışda iştirak edən Netçala RPŞ-nin komandası bütün rəqiblərini qabaqlamağa müvəffəq olub. Yarışın qalibi kimi polisin komandası Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəhbərliyi və münsiflər heyəti tərəfindən kubok, diplom və medallarla təltif olunublar.

# Yaşatmaq üçün ön sıradayıq

## Nəcib təşəbbüsləri hər zaman dəstəkləyirik

Ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən, "Qan ver, yaşat!" devizi ilə hər kəsi həyat qurtarmağa səsləyən və ötən illər ərzində ənənəyə çevrilən qanvermə aksiyalarında həmkarlarımızın həmrəyliyi hər zaman nümunə olub.

Bu günlərdə növbəti belə tədbir Nəsimi Rayon Polis İdarəsində Səhiyyə Nazirliyinin B.Eyvazov adına Respublika Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının təşkilatçılığı və dəstəyi ilə baş tutub. Qan verib, can yaşatmaq üçün səfərbər olan həmkarlarımız hamılıqla aksiyada iştirak ediblər.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

İdarə rəisi polis polkovniki Vüqar Ağayev qana ehtiyacı olan insanların həyatını qurtarmaq üçün belə nəcib təşəbbüslərin DİN rəhbərliyi tərəfindən hər zaman yüksək dəyərləndirildiyini qeyd edib, bunun həm də vətəndaşlıq borcu olduğunu bildirib.

# Oğurluğa görə saxlanıldılar

## Barələrində araşdırma aparılır

Binəqədi rayonu ərazisində yerləşən tikinti şirkətlərinin birindən 476 manat dəyərində 3 ədəd mühərrik oğurlanıb. Binəqədi RPİ 5-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş 34 yaşlı B.İsmayılov saxlanılıb.

Sabunçu rayonu ərazisində isə evlərin birindən oğurluğa cəhd göstərən əvvəllər məhkum olunmuş 35 yaşlı İ.Məmmədov saxlanılıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

# Polis əməliyyat keçirib

## Keçmiş məhkum eyni əmələ görə yenidən tutuldu

Paytaxtın Suraxanı və Nərimanov rayonlarında narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyatlar keçirilib. Tədbirlər zamanı 32 yaşlı E.İsmayılov və əvvəllər narkotiklə əlaqəli cinayətə görə məhkum olunmuş 40 yaşlı N.Şıxəliyev saxlanılıblar. Onlardan 3 kiloqramdan artıq narkotik vasitə olan marixuana, tiryək, heroin və psixotrop maddə olan metamfetamin aşkarlanıb.

Araşdırma aparılır.

# Su sayğaclarını oğurlayırdılar

## Saxlanılarkən üzərlərindən narkotik vasitə aşkarlanıb

Sumqayıt şəhərində müxtəlif ünvanlardan 14 ədəd su sayğacı oğurlanıb. Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə hadisəni törətməkdə təqsirli bilinən 39 yaşlı Amid Məhərrəmov, 33 yaşlı A.İskəndərova və bacısı 31 yaşlı S.İskəndərova tutulublar.

Həmin şəxslər saxlanılarkən üzərlərindən psixotrop maddə metamfetamin də aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Yurdumuzu tanıyaq

## Saral kəndinin və sakinlərinin faciəsi

Saral - Qərbi Azərbaycanın Pəmbək mahalının Hamamlı rayonunun ən qədim kəndlərindəndir. Rayon mərkəzindən 7 km şərqdə, Pəmbək çayının sol qolu Cicixan çayının sağ sahilində yerləşir. Kəndin ilk adı Sarala olmuşdur. Hamamlı rayonu təşkil edilənədək (1937) Qarakilsə rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində kəndin X–XII əsrlərdə salındığı göstərilir.

Bu toponim Sarala adlı hun - türk tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir, quruluşca sadə toponimdir. Kənddə 1831-ci ildə 54 nəfər, 1873-cü ildə 539 nəfər, 1886-cı ildə 654 nəfər, 1897-ci ildə 754 nəfər, 1908-ci ildə 951 nəfər, 1914-cü ildə 1111 nəfər, 1916-cı ildə isə 982 nəfər azərbaycanlı yaşayırdı.

1915–1918-ci illərdə İrandan, Türkiyədən və xaricdən köçürülən ermənilər kəndə yerləşdirilmişdir. 1919-cu ildə azərbaycanlılarla ermənilər birlikdə kəndin əhalisi 3090 nəfər təşkil edirdi.

Milli zəmində baş verən hadisələr məcrasından çıxaraq siyasiləşdikdən sonra bundan istifadə edən daşnaklar 1919-cu ilin axırlarında kənddə yaşayan azərbaycanlıları sıxışdıraraq qətllər törətmiş, onları doğma yurdlarından deportasiya etmişlər. Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 808 nəfər, 1926-cı ildə 851 nəfər, 1931-ci ildə 975 nəfər, 1987-ci ildə 1856 nəfər azərbaycanlı yaşayırdı.

1988-ci ilin noyabrın 1-də kəndin sakinləri olan azərbaycanlıları ermənilər zor gücünə doğma yurdundan uzaqlaşdırmaqdan ötrü onlara olmazın işgəncələr verib, deportasiya etdilər. 1988-ci ilin 30 noyabrında daşnak terrorçuları Hamamlı rayonunun Saral kəndindən Həmzəçimən kəndinə pənah aparan kənd sakinlərinə hücum edərək 18 nəfəri qətlə yetirmişlər. Kənd sakini Mövsüm Balacayev və 8 nəfərlik ailə üzvü öldürülmüş, 7 nəfər isə ağır bədən xəsarətləri almışdır.

Bu gün soydaşlarımızın tarixi yurdlarımıza qayıtmaq arzusunu gerçəkləşdirmək üçün möhtərəm Prezidentimizin göstərdiyi əzmkarlıq, diplomatik uğurlar doğma yurdlara dönüşün yaxın zamanda reallaşacağına inam yaradır. Çox yaxın gələcəkdə tarixi torpaqlarımıza Zəngəzur dəhlizi ilə dönüşün sevincini yaşayacağımıza əminik.

# Ölkə rekordunu təzələdi

## Onlar güclülərin güclüsü oldular

Aprelin 26-27-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Stronqmen Federasiyasının təşkilatçılığı ilə Abşeron Olimpiya Kompleksində "Stronqmen" güc yarışması üzrə Azərbaycan çempionatı keçirilib.







Yarışda Gəncə ŞBPİ-nin 1-ci Polis Şöbəsinin Post-Patrul Xidməti tağımının əməkdaşı polis baş serjantı Əli Əliyev 110+ çəki dərəcəsində təchizatla "benc press" hərəkətində 310 kq qaldıraraq hamıdan güclü olduğunu sübut edib. Yarışda Azərbaycan rekordunu təzələyən həmkarımız may ayının 15-18-i tarixlərində Çexiya Respublikasında keçiriləcək Avropa çempionatında ölkəmizi təmsil edəcək. Sözügedən yarışda daha bir əməkdaşımız da fərqlənib. Göygöl Rayon Regional Mühafizə Şöbəsinin əməkdaşı polis baş serjantı Bəhruz Ələkbərov 90 kq çəki kateqoriyasında təchizatla "benc press" hərəkətində 212.5 kq qaldıraraq 1-ci olub. O, eyni uğuru armilifting idman növündə də təkrarlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

# Fransanın müharibə cinayətləri

## Holokostdan Afrikaya uzanan qaranlıq tarix

Amerikada 2020-ci ildə Əlcəzair mənşəli fransız jurnalisti Nabila Ramdaninin maraqlı məqaləsi dərc edilmişdi. "Fransa Əlcəzairdə özünün qaranlıq tarixi ilə üzləşməlidir. Hələ ki, gec deyil" sərlövhəli yazıda fransızların təkcə Afrikada törətdikləri cinayətlər deyil, həm də II Dünya müharibəsi dövründə nasist Almaniyası ilə əməkdaşlıq edənlərin yəhudiləri toplama düşərgələrinə göndərmələri barədə faktlar əks olunub. Bu dəhşətli faktları 1995-ci ildə Fransanın Prezidenti Jak Şirak da etiraf etmişdi.

XVI əsrdən müstəmləkəçilik siyasəti yürüdən Fransanın II Dünya müharibəsindən əvvəl işğal etdiyi ərazilər 13,5 milyon km² olub. Öz ərazisindən 20 dəfə böyük bir coğrafiyada talançılıq və qətllər törədən bu dövlətin imperiyanı bərpa etmək xəyalları isə hələ də qalır.

### Afrikada fransız müstəmləkəçiliyi

Uzun əsrlərboyu Afrikanın 20-dən artıq ölkəsində öz hakimiyyətini quran fransızların müstəmləkə siyasəti II Dünya müharibəsindən sonra iflasa uğradı. Həmin dövlətlərə müstəqillik verməyə məcbur olan Fransa neokolonializm üsul-idarəsini seçdi. Afrika ölkələrini əlindən buraxmaq istəməyən fransızlar yeni metodlara əl atdılar: həmin dövlətlərin ərazilərində münaqişələr yaratmaq və öz qoşunlarını "sülhməramlı missiya" adı ilə yerləşdirmək. Hazırda Fransa Afrika, xüsusən Sahil regionu ölkələrinin əksəriyyətində siyasi, iqtisadi və mədəni sahələrdə təsirini artırır, Qırmızı dənizdə mövqeyini qorumaq üçün Cibutidə, habelə Sahil regionunun Çad, Mali, Qabondan tutmuş Seneqala qədər uzanan ərazidə hərbi bazalarını qoruyub saxlayır.

Fransız neokolonializmi hərbi güclə yanaşı, dil və təhsil amilinə söykənir. Bu siyasətə qarşı çıxanlar isə, əsasən, Osmanlı imperiyasının tərkibində olmuş ölkələr, habelə İslam dinini hakim olduğu xalqlardır. Məsələn, Şimali Afrikada artıq Fransanın heç bir təsiri qalmayıb. Belə olan təqdirdə Fransa müsəlman birliyinin pozulması, İslam ölkələri arasında ziddiyyətlər yaradılmasına çalışır.

Ekspertlər iddia edirlər ki, Fransanın hələ



1945-ci ildən bəri Afrikada Fransız Müstəmləkələri Frankı (CFA) adlı pul vahidi bu gün də tədavüldədir. Bu valyutaya qarşı çıxan Afrika ölkələrinin liderləri isə korrupsiyada ittiham edilərək həbs olunur, yaxud süni iğtişaşlar təşkil edilir. Liviyanın keçmiş lideri Muammər Qəddafinin faciəli taleyi də məhz bununla əlaqədardır. Sahil regionu ölkələri, habelə Fildişi Sahili və Malidə baş verən münaqişələrin də səbəbi CFA-ya alternativ yaratmaq cəhdləridir. Məhz bu pul vahidinin sayəsində Fransa Afrika ölkələrini istismar edir, onların sərvətlərini mənimsəyir. Qitədə aclıq və səfalətin, kütləvi emiqrasiyanın səbəbi də CFA-dır. Lakin ondan vaz keçmək Afrika ölkələri üçün heç də asan deyil. Təsadüfi deyil ki, indiyədək qitə ölkələrində baş vermiş hərbi çevrilişlərin 70 faizi fransızların təsiri altında olan dövlətlərin payına düşür.

### Fransanın müharibə cinayətləri

Qərb analitikləri yazırlar ki, Fransa müstəmləkə ölkələrinin hamısına səfalət və faciə gətirib. Afrika ölkələrində müstəqillik uğrunda gedən müharibələrdə 2 milyondan çox insan həlak olub. Təkcə Əlcəzairdə fransız ordusu 1 milyondan çox insanı qətlə yetirib. Hazırda Fransanın bu ölkədə törətdiyi soyqırımına dair rəsmi Parisə təzyiqlər artır, imzatoplama kampaniyaları davam edir.

Fransanın daha bir qanlı izi Ruandadadır. 1994-cü ildə fransızlar bu ölkədə "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat həyata keçiriblər. Bundan cəsarətlənən digər yerli münaqişə tərəfinin də iştirakı ilə tutsi qəbiləsinin 800 mindən çox üzvü qətlə yetirilib. 2014-cü ildə Ruanda Prezidenti Pol Kaqamenin soyqırımı aktında Fransanın rolunu dəqiq müəyyən etdiyi barədə bəyanatı isə rəsmi Parislə siyasi böhrana səbəb olmuşdu.

Bundan başqa, Fransa qoşunlarının Çadda keçirdikləri "Epervier", Fildişi Sahilində "Licorne" hərbi əməliyyatları da çoxlu sayda insan tələfatı ilə nəticələnib. 2011-ci ildə isə mülki insanları qorumaq bəhanəsi ilə Liviyada keçirilən "Harmattan" və iki il sonra Malidəki "Serval" hərbi əməliyyatları da böyük dağıntılara və qətllərə səbəb olub.

# Bərkimiş təkəri necə açmaq olar?

## Mütəxəssislərin tövsiyələrinə əməl etmək faydalıdır

Bərkimiş təkəri açmaq üçün mütəxəssislər bu üsulları məsləhət görürlər.

**Sükanla hərəkət etdirmək** - Boltları boşaldaraq, avtomobil yerində dayandıqda sükanı sağa və sola çevirmək. Sadə, amma az effektiv bir üsuldur.

**Domkratla qaldırıb vurmaq** - Təkəri yerdən qaldırıb, boltları boşaltdıqdan sonra onun perimetri boyunca ayaqla yüngülcə vurmaq. Unutmayın ki, çox güclü zərbələr domkratın sürüşməsinə və avtomobilə ziyan vurmasına səbəb ola bilər.

**Ani qaz və əyləc vermək** - Avtomobili qaldıraraq təkər boltlarını boşaltmaq və sonra avtomobili sürətlə fırladıb qəfil əyləcə basmaq. Lakin bu üsul dişli sistemə zərər vura bilər və ehtiyatla tətbiq edilməlidir.

Avtomobillərdə istifadə üçün nəzərdə tutulan əyləc mayesindən istifadə edərək təkəri bir qədər vurmaq. Bu, xüsusilə yüngül lehimli disklərdə effektivdir.

**Montirovka ilə aralamaq** - Ştampl diskdirsə, montirovkanı diskin aralarına qoyaraq tədricən aralamaq mümkündür.

**Çəkic və xüsusi alətlərdən istifadə** - Zərbə çıxarıcılar və ya vintli çıxarıcılardan istifadə edərək təkəri çıxarmağa çalışmaq.

**Təkərin bərkiməsinin qarşısını necə almaq olar?**

Bu məqsədlə disk və mərkəzi hissəyə qrafit və ya mis sürtkü yağı çəkmək, mütəmadi olaraq pası təmizləmək, termoplastik ara laylarından istifadə etmək məqsədə müvafiqdir.

Əgər təkər tamamilə bərkiyibsə və çıxarmaq mümkün deyilsə, avtomobillərin təmir mərkəzinə müraciət etmək ən yaxşı seçimdir.

# Ceyms Uatın "yadigarı"

## Bu anlayışlar ümumişlək sözə çevrilib

**At gücü və fırlanma anı anlayışlarına tez-tez rast gəlirik. Məhz bu iki göstərici avtomobilin verimliliyini müəyyən edir və xüsusilə yeni minik maşını alanlar üçün vacib meyar hesab olunur. Ancaq bir-birini tamamlayan bu anlayışlar tez-tez qarışdırılır.**

### At gücü nədir?

At gücü mühərrikin hasil etdiyi ümumi gücü ifadə edir. Bu anlayışı ilk dəfə məşhur Şotland mühəndis Ceyms Uatt işlədib. O, bir atın 45 kiloqramlıq yükü 1,11 metr məsafəyə 1 saniyəyə daşıya bildiyini müəyyən edərək, bu güc ölçüsünü formalaşdırıb. Daha sonra avtomobil mühəndisləri at gücünü 75 kiloqram yükü 1 saniyədə 1 metr irəli apara biləcək enerji kimi təsnif etdilər.

Avtomobillərdə at gücü mühərrikin maksimum gücünü göstərir. Məsələn, bir avtomobilin mühərriki 100 kilovatt gücündədirsə, bu, təxminən 134 at gücünə (HP) bərabərdir. Şəhər istifadəsi üçün optimal mühərrik gücünün ən az 90 at gücü olduğu hesab edilir.

### Fırlanma anı nədir?

Fırlanma anı mühərrikin dirsəkli valında yaranan fırlanma qüvvəsidir və nyuton-metr (Nm) ilə ölçülür. Mühərrikin təkərlərə ötürdüyü itələyici güc fırlanma anıdır. Daha yüksək fırlanma anı avtomobilin daha güclü dartma qabiliyyətinə malik olması deməkdir. Bu göstərici avtomobilin daşıma gücünü, sürətlənməsini və yoxuşlarda davranışını müəyyən edir.

Xüsusilə aşağı sürətlərdə yüksək fırlanma anına sahib avtomobillər daha yaxşı dartma gücünə malik olur. Məsələn, elektrik mühərrikli avtomobillər daxiliyanma mühərriklərindən daha yüksək fırlanma anına malikdir, bu da onların ani sürətlənmə qabiliyyətini artırır.

Bu iki anlayış sıx əlaqəli olsa da, fərqli funksiyalara malikdir. At gücü daha çox avtomobilin sürəti ilə bağlıdır və maksimum sürətə çatma qabiliyyətini göstərir. Fırlanma anı isə avtomobilin dartma gücünü və yükdaşıma qabiliyyətini müəyyən edir.

Yüksək at gücünə malik avtomobillər daha yüksək sürətə çata bilər, lakin bu onların güclü dartma qabiliyyətinə malik olması demək deyil. Məsələn, yarış avtomobilləri yüksək at gücünə sahibdir, çünki sürət əsas faktordur. Digər tərəfdən, yük maşınlarında yüksək fırlanma anı tələb olunur, çünki onlar ağır yükləri daşımalıdırlar.

### Hansı daha vacibdir?

Sürücünün ehtiyacına görə bu göstəricilərdən biri daha vacib ola bilər. Yüksək sürət və dinamika istəyənlər üçün at gücü, daşıma qabiliyyəti və çətin yol şəraitində güclü performans axtaranlar üçün isə fırlanma anı daha önəmlidir.

Beləliklə, avtomobil seçərkən həm at gücünü, həm də fırlanma anını nəzərə almaq vacibdir. Çünki güclü mühərrik avtomobilin mütləq yüksək dartma gücünə sahib olması demək deyil. Balanslı seçim üçün hər iki göstəricinin nəzərə alınması tövsiyə edilir.

# Hikmətli sözlər

## Danış ki, səni görüm

Boş zaman yoxdur, boşa keçən zaman var.

❖❖❖

Dünyada təqlid edilməyən tək şey cəsarətdir.

❖❖❖

Hər kəsi dinlə, amma sadəcə özün doğru bildiyini et.

❖❖❖

Odunu özün yarsan iki dəfə isinərsən.

❖❖❖

Ağlın və ürəyin yolu bir olduqda, bütün yollar zəfərə gedər.

❖❖❖

Döyüşən məğlub ola bilər, döyüşməyənsə çoxdan məğlubdur.

❖❖❖

Keçmişimizə daş atmayaq ki, gələcəyimiz bizi topa tutmasın.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik